**Ramazan QAFARLI**

# QARTAL VƏ QARĞA, yaxud ERMƏNİNİN TÜRKLƏ DAVASI

*“Mən Xamenei həzrətlərinə müsəlmanlar, dindarlar adından təşəkkür edirəm. Deyə bilərəm ki, onun fətvası qələbənin carçısı idi. O qərar verdi ki, Qarabağ İslam torpağıdır və orada canını verənlər də şəhiddirlər. Bu bizim qələbəmizi sübut elədi, gətirib həmin qələbəyə çıxartdı...” Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın müşaviri Mücahit Küçükyılmaz Allahşükür Paşazadənin bu qalmaqallı sözlərinə belə reaksiya verib: "Görünür ki, Xamenei Ermənistana silah göndərərəkən, Azərbaycana da fətva göndərib."*



Qartal göyə qalxır, quşlar yox olur,
Açıb qanadını süzür havada.
Önünə çıxanın rəngi tez solur,
Qartalı enən yox uçuş, davada.

Təkcə qara qarğa: "Mən varam" - deyir,
Göydə qartal gördü, belinə minir,
Dişləyir boynunu, qurdunu yeyir...
Qartal nə diksinir, nə də ki dinir.

Qalxmağa başlayır göydə yuxarı,
Baş vurur dinməzcə yüksəkliklərə.
Qarğa elə bilir tapıbdır darı.
Göylərdən görünür nə dağ, nə dərə.

Havasız məkana çatanda qarğa
Boğulur, nəfəsi daralır tamam.
Özünü göylərdən atanda qarğa
Qaralığı solur, saralır tamam.



Qartal lovğa quşdan soruşur: "Nədi,
Yediyin cücülər qoza çevrilir?.."
Daşlara çırpılır quşun cəsədi,
Parça-parça olub, toza çevrilir.



Qartal süzür yenə göyün üzündə,
Lovğanın başına bəlalar açıb...
Həya yox, abır yox hayın üzündə,
Canını qurtarır arvad tək qaçıb.

Qartala bənzəyən Azərbaycana
Qarğa, quzğun olan erməni neylər?
Dəmir Yumruq hərdən yığılıb cana

Qartal tək hayları peşiman eylər.

Qarğaya fətva da yardıma gəldi,
Murdar donuzları məscidə soxdu.
Müsəlman qonşunun işi əngəldi,
Dindarın imanı, mürvəti yoxdu.



İslam qartalları, şirləri sevir,
Qonşumuz qarğanı, tülkü, çaqqalı.
Yalançı fətvanı başına çevir,
Ayıbdır, alçaltma saçı, saqqalı.

Erməni şeytana silah verəndə
Qartalla qarğanı yadında saxla.
Baş molla, Ağaya hərdən girəndə
Abrını, həyanı adında saxla.

Ölkə başçısının, dost Ərdoğanın,
İgid əsgərlərin haqqını yemə.
Cəhənnəmlik olar, susmasan canın,
Türkün ünvanına sən "yaman" demə.

Allah bağışlamaz yalanlarını,
Qarğa-quzğun kimi qartalı minmə.
Oğurluq mülkünü, haram varını,
Xımır-xımır ötür, bir daha dinmə.

Vicdan yoxundur ki, bilmirsən nədir,

İnsana verilən haqq ərmağanı.
Müqəddəs dinimiz gör nə gündədir,
Milləti unuudub öydün Ağanı.

Xəcalət çəkirik sənin yerinə,
Rusun ordenini döşünə taxdın.
Sanıram dönursən çirkə, irinə,
Şuşadan Sən niyə İrana baxdın?

Unutdun Bakını, qalıb əsgəri,
Türkün birliyini, ədalətini.
Az qala gözlərdən salıb əsgəri,
Yalanla millətin tökdün ətini.

Qarabağ əbədi türk torpağıdır,
İslam əqiməmiz, məsləkimizdir.
Türkün birləşməsi gözlər dağıdır,
Ağırıq dünyada, ilk çəkimizdir.

Hələ Turan gəlir, toy qabaqdadır,
Günbatan, Gundogan Türk elləridir.
Dövlətlər çoxdan çox, el bir addadır,
Bayraqdan yapışan Türk əlləridir.

*24 iyul 2021-ci il*

